Ədəbiyyat qəzeti

28 noyabr 2020-ci il 29

# Təbrik

*Əziz qələm dostum, Xalq şairi Vahid Əziz!*

*Həyatınızın 75, bədii yaradıcılığınızın yarıməsrlik hesabatını verdiyiniz bu günləri, bütün Türk Dünyasının qürur yeri olan tarixi Vətən müharibəsi zəfərimizi Səninlə bir yerdə qarşılamaqdan çox məmnunam. Necə deyərlər, çox xoşdu ki, tale bizə bu anları gözüdolusu yaşatdı.*

*Hər bir qələm adamı kimi, son 30 il müddətində Qarabağ ağrımızın Sənin də yaradıcılığında aparıcı yer tutduğu göz önündəydi. Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının çoxsaylı tədbirlərində görüşlərimiz zamanı da bu mövzu təbii ki, bütün söhbətlərimizdən ana xətt kimi keçirdi. O söhbətlər zamanı sifətinizin hansı ağrılarla kölgələnməsini, gözlərinizin necə qübarlanmasını heç unutmuram.*

*Nə deyim, bəlkə də tale belə uzun ömür yaşamağı bizə ona görə ata edib ki, Ali Baş Komandanımız, ölkəmizin başçısı İlham Əliyevin və Azərbaycan Ordusunun xalqımıza yaşatdığı bu xoş günlərin şahidi olaq, dünyadan nisgilli getməyək.*

*Ancaq ona da inanıram ki, külli-Qarabağ torpaqlarında aparılacaq quruculuq işlərinin, bəxtəvər yaşamın da tərənnümçüsü kimi bundan sonra da qələm əlimizdə olacaq, şair və ağsaqqal sözümüzlə dövlətimizə xidmət edəcəyik.*

*Dərin sayğıyla*

**Nəriman HƏSƏNZADƏ**

*Xalq şairi, Azərbaycan Yazıçılar Birliyi*
*Ağsaqqallar Şurasının sədri*